AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin əmri ilə yaradılmış İşçi Qrupu tərəfindən 03 avqust 2026-cı il tarixində təsdiq edilmişdir.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL SAHƏSİNDƏ VALİDEYN-DÖVLƏT-ÖZƏL ƏMƏKDAŞLIĞINA ƏSASLANAN MALİYYƏLƏŞMƏ MODELİ ƏSASINDA MÜSABİQƏNİN KEÇİRİLMƏSİ ÜZRƏ

---

## ŞƏRTLƏR TOPLUSU

**2026-cı il**

---

Ünvan: AZ1008, Azərbaycan Respublikası, Bakı şəhəri, Xətai prospekti 49

Elektron poçt: vdo.mektebeqeder@edu.gov.az

## MÜNDƏRİCAT

**1. ÜMUMİ MÜDDƏALAR ..................................................................................................... 4**

1.1. MÜSABİQƏNİN VƏ ŞƏRTLƏR TOPLUSUNUN MƏQSƏDİ ........................................ 4

1.2. HÜQUQİ ƏSAS ................................................................................................................ 4

1.3. MALİYYƏLƏŞMƏ MODELİ VƏ ONUN ƏSAS ŞƏRTLƏRİ ........................................... 4

1.4. DÖVLƏT DƏSTƏYİNİN MƏBLƏĞİ ............................................................................... 4

1.5. LAYİHƏNİN İCRA MÜDDƏTİ .......................................................................................... 4

1.6. ƏSAS ANLAYIŞLAR ........................................................................................................ 4

**2. MÜSABİQƏNİN KEÇİRİLMƏ QAYDASININ MÜFƏSSƏL TƏSVİRİ ............................... 6**

2.1. MÜSABİQƏDƏ İŞTİRAK ŞƏRTLƏRİ ............................................................................. 6

2.2. MÜSABİQƏNİN ELAN EDİLMƏSİ VƏ ŞƏRTLƏR TOPLUSUNUN TƏQDİM OLUNMASI............................................................................................................................ 6

2.3. MÜSABİQƏYƏ MÜRACİƏT ............................................................................................ 6

2.4. MÜRACİƏTLƏRƏ BAXILMASI VƏ SƏNƏDLƏRİN YOXLANILMASI ........................... 6

2.5. LAYİHƏ TƏKLİFLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ QALİBİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ ............................................................................................ 7

2.6. MÜSABİQƏNİN NƏTİCƏLƏRİNDƏN ŞİKAYƏTİN VERİLMƏSİ ................................... 9

2.7. VALİDEYNLƏRİN LAYİHƏDƏ İŞTİRAKI VƏ ONLARIN LAYİHƏ TƏRƏFDAŞINA ÇEVRİLMƏSİ .................................................................................................................... 9

2.8. QALİB LAYİHƏLƏR ÜZRƏ MÜQAVİLƏLƏRİN BAĞLANMASI VƏ MALİYYƏLƏŞDİRİLMƏSİ ...........................................................................................10

2.9. MÜQAVİLƏLƏRİN İCRASININ MONİTORİNQİ VƏ HESABATI .................................. 11

**3. ƏLAVƏLƏR .................................................................................................................... 12**

ƏLAVƏ 1. MƏKTƏBƏQƏDƏR TƏHSİL SAHƏSİNDƏ VALİDEYN-DÖVLƏT-ÖZƏL ƏMƏKDAŞLIĞINA ƏSASLANAN MALİYYƏLƏŞMƏ MÜSABİQƏSİNƏ TƏQDİM EDİLƏCƏK LAYİHƏ TƏKLİFİNİN NÜMUNƏVİ FORMASI ................................................................ 12

ƏLAVƏ 2. MƏKTƏBƏQƏDƏR TƏHSİL SAHƏSİNDƏ VALİDEYN-DÖVLƏT-ÖZƏL ƏMƏKDAŞLIĞINA ƏSASLANAN MALİYYƏLƏŞMƏ MÜSABİQƏSİ ƏSASINDA AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ İLƏ ÖZƏL TƏRƏFDAŞ ARASINDA BAĞLANILAN MALİYYƏLƏŞDİRMƏ MÜQAVİLƏSİNİN LAYİHƏSİ .......................................................................................................................................... 15

ƏLAVƏ 3. MƏKTƏBƏQƏDƏR TƏHSİL SAHƏSİNDƏ VALİDEYN-DÖVLƏT-ÖZƏL ƏMƏKDAŞLIĞINA ƏSASLANAN MALİYYƏLƏŞMƏ MÜSABİQƏSİ ƏSASINDA ÖZƏL MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏSİ İLƏ VALİDEYN ARASINDA BAĞLANILAN XİDMƏT MÜQAVİLƏSİNİN LAYİHƏSİ ........................................................................ 24

# 1. ÜMUMİ MÜDDƏALAR

**1.1. MÜSABİQƏNİN VƏ ŞƏRTLƏR TOPLUSUNUN MƏQSƏDİ**

1.1.1. Müsabiqə məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiq olunacağı özəl məktəbəqədər təhsil müəssisələrinin seçilməsi məqsədilə keçirilir.

1.1.2. Şərtlər toplusu məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiqi məqsədilə keçirilən müsabiqənin keçirilmə qaydasını, layihə təkliflərinə verilən tələbləri, layihə təkliflərinin qiymətləndirilməsi və müsabiqə qaliblərinin seçilməsi meyarlarını müəyyən edir.

**1.2. HÜQUQİ ƏSAS**

1.2.1. Bu Şərtlər toplusu Azərbaycan Respublikasının Konstitusiyasına, "Təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında", "Lisenziyalar və icazələr haqqında", "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının qanunlarına, "Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiqi Qaydaları"na və digər normativ hüquqi aktlara uyğun olaraq hazırlanmışdır.

**1.3. MALİYYƏLƏŞMƏ MODELİ VƏ ONUN ƏSAS ŞƏRTLƏRİ**

1.3.1. Maliyyələşmə modeli valideyn, dövlət və özəl tərəfdaşın birgə iştirakına əsaslanır.

1.3.2. Dövlət dəstəyi müsabiqə nəticəsində seçilmiş layihələr üzrə tədris Azərbaycan dilində aparılan qruplarda təhsilalanlara göstərilən məktəbəqədər təhsil xidmətlərinin qismən maliyyələşdirilməsi məqsədilə ayrılır.

1.3.3. Özəl tərəfdaş məktəbəqədər təhsil xidmətlərinin göstərilməsini, valideyn isə xidmət müqaviləsində nəzərdə tutulmuş iştirak payının ödənilməsini təmin edir.

**1.4. DÖVLƏT DƏSTƏYİNİN MƏBLƏĞİ**

1.4.1. Müsabiqə nəticəsində seçilmiş layihələr üzrə hər bir təhsilalana göstərilən təhsil xidmətlərinə görə dövlət dəstəyinin aylıq məbləği təhsil haqqının 70 (yetmiş) faizi həcmində müəyyən edilir.

1.4.2. Dövlət dəstəyinin aylıq məbləği Bakı şəhəri üzrə 350 (üç yüz əlli) manatdan, digər regionlar üzrə isə 250 (iki yüz əlli) manatdan çox ola bilməz.

**1.5. LAYİHƏNİN İCRA MÜDDƏTİ**

1.5.1. Müsabiqə çərçivəsində maliyyələşdirilən layihələrin icra müddəti 10 (on) aydan çox olmamalıdır.

**1.6. ƏSAS ANLAYIŞLAR**

1.6.1. Bu Şərtlər toplusunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.6.1.1. təhsilalanlar – müsabiqə əsasında təhsil alacaq 1-6 yaşlı uşaqlar;

1.6.1.2. valideynlər – təhsilalanların valideynləri və ya digər qanuni nümayəndələri;

1.6.1.3. dövlət tərəfdaşı – Nazirlik;

1.6.1.4. iddiaçı – müsabiqədə özəl tərəfdaş qismində iştirak edən hüquqi şəxs və ya onun səlahiyyətli nümayəndəsi;

1.6.1.5. şərtlər toplusu – Nazirliyin İşçi qrupunun hazırladığı, müsabiqə şərtlərini əks etdirən və iddiaçılara təqdim edilən sənəd;

1.6.1.6. layihə – iddiaçının müsabiqəyə təqdim etdiyi təklif;

1.6.1.7. maliyyələşdirmə müqaviləsi – Nazirlik ilə iddiaçı arasında bağlanılmış müqavilə;

1.6.1.8. xidmət müqaviləsi – iddiaçı ilə valideyn arasında bağlanılmış müqavilə;

1.6.1.9. MTİS – Məktəbəqədər Təhsil Müəssisələrinin İnformasiya Sistemi (Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sisteminin alt sistemi);

1.6.1.10. bq.edu.az – məktəbəqədər təhsil müəssisələrinə elektron sənəd qəbulu sistemi;

1.6.1.11. mygov – Azərbaycan Respublikasının rəqəmsal hökumət platforması.

## 2. MÜSABİQƏNİN KEÇİRİLMƏ QAYDASININ MÜFƏSSƏL TƏSVİRİ

### 2.1. MÜSABİQƏDƏ İŞTİRAK ŞƏRTLƏRİ

2.1.1. Müsabiqədə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən məktəbəqədər təhsil fəaliyyətinə lisenziya verilmiş özəl təhsil müəssisələri iddiaçı qismində iştirak etmək hüququna malikdirlər.

### 2.2. MÜSABİQƏNİN ELAN EDİLMƏSİ VƏ ŞƏRTLƏR TOPLUSUNUN TƏQDİM OLUNMASI

2.2.1. Müsabiqənin keçirilməsi barədə mediada və Nazirliyin rəsmi internet saytında aşağıdakı məlumatları əks etdirməklə elan verilir:
2.2.1.1. iddiaçılara dair tələblər və uyğunluq sənədləri;
2.2.1.2. şərtlər toplusunun əldə edilməsi qaydası;
2.2.1.3. müsabiqəyə müraciətin başlanma və son tarixi;
2.2.1.4. əlaqə vasitələri;
2.2.1.5. müsabiqə ilə bağlı digər zəruri məlumatlar.
2.2.2. Şərtlər toplusu müsabiqə elanında göstərilən qaydada iddiaçılara təqdim edilir.
2.2.3. Müsabiqə başlandıqdan sonra müsabiqənin şərtlər toplusunda dəyişikliklər edildikdə, müsabiqənin müddəti bu dəyişikliklər barədə elanda nəzərdə tutulmuş müddətə, lakin artırılan müddətin müsabiqənin ilkin müddətindən çox olmaması şərtilə artırıla bilər.
2.2.4. Müsabiqənin şərtlər toplusunda edilən dəyişikliklər barədə müsabiqənin bütün iddiaçılarına dəyişiklik müsabiqənin şərti kimi müəyyənləşdirildiyi gündən növbəti 2 (iki) iş günü müddətində məlumat verilir.

### 2.3. MÜSABİQƏYƏ MÜRACİƏT

2.3.1. İddiaçının səlahiyyətli nümayəndəsi (dövlət reyestrindən çıxarışda qeyd edilmiş qanuni təmsilçisi) müsabiqə elanında müəyyən edilmiş müddət ərzində **anket.edu.az**-da qeydiyyatdan keçir. Səlahiyyətli nümayəndə dövlət reyestrindən çıxarışda qeyd edilmiş qanuni təmsilçi olmadıqa həmin şəxsin təmsiletmə səlahiyyətlərini təsdiq edən hüquqi sənədin surəti təqdim edilməlidir.
2.3.2. İddiaçı elektron kabinet vasitəsilə bu şərtlər toplusunun 1 nömrəli əlavəsinə uyğun hazırladığı layihə təklifini və aşağıdakı sənədləri təqdim edir:
2.3.2.1. iddiaçının nizamnaməsinin surəti;
2.3.2.2. iddiaçının dövlət reyestrindən çıxarışının surəti;
2.3.2.3. iddiaçının məktəbəqədər təhsil fəaliyyəti üzrə lisenziyasının və əlavəsinin surəti;
2.3.2.4. iddiaçının məktəbəqədər təhsil sahəsində fəaliyyət təcrübəsi barədə məlumat;
2.3.2.5. iddiaçının Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişli xidmətlər üzrə vaxtı keçmiş öhdəliklərin və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmaması barədə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən verilmiş arayış;
2.3.3. Əgər eyni hüquqi şəxs məktəbəqədər təhsil fəaliyyətinin həyata keçirilməsi üzrə bir neçə lisenziyaya malikdirsə, müsabiqəyə hər bir lisenziya üzrə ayrıca layihə təklifi ilə müraciət etməlidir.

### 2.4. MÜRACİƏTLƏRƏ BAXILMASI VƏ SƏNƏDLƏRİN YOXLANILMASI

2.4.1. Elektron ərizə iddiaçı tərəfindən təsdiq edildikdən sonra məlumatların tamlığı qanunla müəyyən edilmiş müddətdə yoxlanılır.
2.4.2. Sənədlərdə natamamlıq və ya uyğunsuzluq aşkar edildikdə iddiaçıya bu barədə məlumat verilir və çatışmazlıqların aradan qaldırılması üçün 3 (üç) iş günü müddət müəyyən edilir.
2.4.3. Elektron kabinetə elektron ərizə və ya sənədlərin natamamlığı ("İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla) və ya uyğunsuzluğu barədə məlumat göndərildikdən sonra iddiaçı 3 (üç) iş günü ərzində onların tamlığını təmin edib elektron ərizəni təkrar təsdiq etməlidir.
2.4.4. İddiaçı 3 (üç) iş günü ərzində elektron ərizə və ya sənədlərindəki natamamlığı və ya uyğunsuzluğu aradan qaldırmadıqda, layihə təklifi qiymətləndirməyə buraxılmır və iddiaçı müsabiqədən kənarlaşdırılır.

## 2.5. LAYİHƏ TƏKLİFLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ QALİBİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

2.5.1. Sənədlərin tamlığı yoxlanıldıqdan sonra 30 (otuz) gün ərzində layihələrin qiymətləndirilməsi aşağıdakı qaydada aparılır:
2.5.1.1. əvvəlcə layihələrin müsabiqənin şərtlər toplusu ilə müəyyən edilmiş tələblərə uyğunluğu yoxlanılır və belə tələblərə cavab verməyən təkliflərə baxılmır;
2.5.1.2. daha sonra layihələr 100 (yüz) ballıq şkala üzərindən aşağıda göstərilən meyarlar və hər bir meyar üzrə həmin meyarın xüsusi çəkisi nəzərə alınmaqla balların verilməsi üsulu ilə qiymətləndirilir:

| № | Meyarlar | Maksimal bal |
|---|---|---|
| **1.** | **Təhsil haqqının səmərəliliyi**<br>İddiaçının təklif etdiyi aylıq təhsil haqqının səmərəliliyi balı aşağıdakı düstur əsasında hesablanır:<br><br>**THb = (Dd / THm ) × 50**<br><br>Burada:<br>**THb** – aylıq təhsil haqqının səmərəliliyi üzrə bal;<br>**Dd** – dövlət dəstəyinin aylıq maksimal həddi (Bakı şəhəri üzrə 350 manat, digər regionlar üzrə 250 manat);<br>**THm** – aylıq təhsil haqqının məbləği.<br><br>Qeyd: Bu meyar üzrə təklif olunan aylıq təhsil haqqının dövlət dəstəyinin aylıq maksimal həddinə nisbəti əsasında təhsil haqqının səmərəliliyi qiymətləndirilir. Təhsil haqqının aylıq məbləği dövlət dəstəyinin aylıq maksimal həddindən aşağı olduqda bu meyar üzrə maksimal bal verilir. | **50 bal** |
| **2.** | **Təhsilalanların pedaqoji işçilərə nisbəti**<br>Təhsilalanların sayının pedaqoji işçilərin sayına olan nisbəti 10 və daha aşağı olduqda "10" bal, 11-19 olduqda "9-1" bal, 20 və daha yuxarı olduqda "0" bal ilə qiymətləndirilir.<br><br>Qeyd: Bu meyar üzrə təhsilalanların sayının pedaqoji işçilərin sayına nisbəti əsasında tədris prosesinin təşkili üçün mövcud pedaqoji heyətin sayı qiymətləndirilir. İddiaçının (məktəbəqədər təhsil fəaliyyətinə dair lisenziyanı son tədris ili ərzində almış İddiaçılar istisna olmaqla) layihə təklifindəki | **10 bal** |

| | | |
|---|---|---|
| | məlumatlar MTİS-dəki məlumatlarla ziddiyyət təşkil etdikdə, MTİS məlumatları əsas götürüləcəkdir. | |
| **3.** | **Pedaqoji işçilərin ixtisas uyğunluğu**<br>Pedaqoji işçilərin ixtisas uyğunluğu balı aşağıdakı düstur əsasında hesablanır:<br>**Pix = ( Pat / Püm) × 10**<br><br>Burada:<br>**Pix** – pedaqoji işçilərin ixtisas uyğunluğu üzrə bal;<br>**Pat** – pedaqoji və ya psixologiya ixtisası üzrə ali təhsilə malik pedaqoji işçilərin sayı;<br>**Püm** – pedaqoji işçilərin ümumi sayı.<br><br><u>Qeyd:</u> Bu meyar üzrə pedaqoji işçilərin ixtisas uyğunluğu qiymətləndirilir. İddiaçının (məktəbəqədər təhsil fəaliyyətinə dair lisenziyanı son tədris ili ərzində almış İddiaçılar istisna olmaqla) layihə təklifindəki məlumatlar MTİS-dəki məlumatlarla ziddiyyət təşkil etdikdə, MTİS məlumatları əsas götürüləcəkdir. | **10 bal** |
| **4.** | **Pedaqoji işçilərin təcrübəliliyi**<br>Pedaqoji işçilərin təcrübəliliyi balı aşağıdakı düstur əsasında hesablanır:<br>**Pt = ( Npt / Üs) × 10**<br><br>Burada:<br>**Pt** – pedaqoji işçilərin təcrübəliliyi üzrə bal;<br>**Npt** – məktəbəqədər təhsil sahəsində azı 3 il iş təcrübəsinə malik pedaqoji işçilərin sayı;<br>**Püm** – pedaqoji işçilərin ümumi sayı.<br><br><u>Qeyd:</u> Bu meyar üzrə pedaqoji heyətin məktəbəqədər təhsil sahəsində peşə təcrübəsi qiymətləndirilir. İddiaçının (məktəbəqədər təhsil fəaliyyətinə dair lisenziyanı son tədris ili ərzində almış İddiaçılar istisna olmaqla) layihə təklifindəki məlumatlar MTİS-dəki məlumatlarla ziddiyyət təşkil etdikdə, MTİS məlumatları əsas götürüləcəkdir. | **10 bal** |
| **5.** | **Məktəbəqədər təhsil fəaliyyəti həyata keçirmək hüququnun davamlılığı**<br>Məktəbəqədər təhsil fəaliyyəti həyata keçirmək hüququnun davamlılığı balı aşağıdakı düstur əsasında hesablanır:<br>**FHd = (Nlm / 36 ) × 10**<br><br>Burada:<br>**FHd** – Məktəbəqədər təhsil fəaliyyəti həyata keçirmək hüququnun davamlılığı üzrə bal;<br>**Nlm** – lisenziya aldığı tarixdən qiymətləndirmə tarixinədək keçən ayların sayı.<br><br><u>Qeyd:</u> Bu meyar üzrə qiymətləndirmə zamanı iddiaçının məktəbəqədər təhsil fəaliyyət növü üzrə lisenziya aldığı tarixdən qiymətləndirmə tarixinədək keçən müddətin arzu olunan minimal 36 aylıq müddətlə müqayisədə az və ya çox olması qiymətləndirilir. İddiaçının lisenziya aldığı tarixdən qiymətləndirmə tarixinədək keçən ayların sayı 36 aydan çox olduqda bu meyar üzrə maksimal bal verilir. | **10 bal** |
| **6.** | **Özünü maliyyələşdirmə potensialı** | **10 bal** |

| | | |
|---|---|---|
| | Özünü maliyyələşdirmə potensialı balı aşağıdakı düstur əsasında hesablanır:<br>**Öm = (T - Ms) / T × 10**<br><br>Burada:<br>**Öm** – özünü maliyyələşdirmə potensialı üzrə bal;<br>**T** – müəssisənin təhsilalan tutumu;<br>**Ms** – müsabiqə çərçivəsində təhsilalanların cəlb olunması üçün ayrılmış yerlərin sayı.<br><br>Qeyd: Bu meyar üzrə iddiaçının dövlət dəstəyi ilə maliyyələşdirilməyən təhsilalanlar üçün ayrılmış yerlər hesabına fəaliyyətini davam etdirmək imkanını əks etdirən özünümaliyyələşdirmə potensialı qiymətləndirilir. | |
| | **YEKUN BAL:** | **100 bal** |

2.5.2. Müsabiqə elanında göstərilən dövlət dəstəyinin ümumi məbləği çərçivəsində, layihələrin qiymətləndirilməsi nəticəsində ən yüksək yekun bal toplamış iddiaçılar bal sıralamasına əsasən müsabiqənin qalibi elan olunur və onlar barədə məlumatlar Nazirliyin rəsmi internet saytında yerləşdirilir və ya mediada dərc edilir.

2.5.3. Müsabiqə elanında göstərilən dövlət dəstəyinin ümumi məbləği çərçivəsində, layihələrin qiymətləndirilməsi nəticəsində eyni yekun bal toplamış iddiaçılar arasından qalibin müəyyənləşdirilməsi üçün seçim aparılması zərurəti yarandıqda “Təhsil haqqının səmərəliliyi” meyarı üzrə daha yüksək bal toplamış iddiaçıya üstünlük verilir, bu meyar üzrə toplanmış ballar bərabər olduqda İşçi qrupunun qərarı ilə seçilmiş iddiaçıya üstünlük verilir.

2.5.4. Müsabiqə qaliblərinin elektron kabinetinə və elektron ərizəsində qeyd etdiyi digər əlaqə vasitələrinə bu barədə 5 (beş) iş günü müddətində məlumat göndərilir.

## 2.6. MÜSABİQƏNİN NƏTİCƏLƏRİNDƏN ŞİKAYƏTİN VERİLMƏSİ

2.6.1. İddiaçılar müsabiqənin nəticələrindən, habelə layihələrin qiymətləndirilməsi ilə bağlı qərarlardan inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verə bilərlər.

2.6.2. Şikayətin verilməsi müsabiqənin nəticələrinin icrasına təsir etmir və qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, qəbul edilmiş qərarların icrasının dayandırılması üçün əsas hesab edilmir.

## 2.7. VALİDEYNLƏRİN LAYİHƏDƏ İŞTİRAKI VƏ ONLARIN LAYİHƏ TƏRƏFDAŞINA ÇEVRİLMƏSİ

2.7.1. Müsabiqə qalibləri olmuş iddiaçılar layihələrində göstərdikləri saydan artıq olmayan sayda təhsilalanların cəlb edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 yanvar tarixli 16 nömrəli Qərarı ilə təsdiq edilmiş “Məktəbəqədər təhsil müəssisələrinə qəbul Qaydası”na uyğun olaraq valideynlərin layihədə iştirakını təmin edirlər.

2.7.2. Valideynlər Nazirliyin rəsmi internet saytında müsabiqənin qalibləri barədə məlumat yerləşdirildikdən sonra qaliblərin təqdim etdikləri məlumatlarla tanış olduqdan və aylıq iştirak payı ilə razılaşdıqdan sonra **"mygov" platforması** vasitəsilə elektron kabinetinə daxil olaraq dövlət dəstəyinin alınması üçün təhsilalanın qeydiyyatını aparır və elektron ərizəni təsdiq edirlər.

2.7.3. Valideyn elektron ərizəyə aşağıdakı sənədləri əlavə edir:

2.7.3.1. “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 8.9-cu maddəsində göstərilən şəxslər kateqoriyasına aid olub-olmadığını təsdiq edən sənədin surəti;

2.7.3.2. təhsilalanın şəxsiyyətini təsdiq edən sənədin surəti.

2.7.4. Elektron ərizə təsdiq edildikdən sonra məlumatların tamlığı qanunla müəyyən edilmiş müddətdə yoxlanılır.

2.7.5. Elektron ərizədə və ya əlavə edilmiş sənədlərdə natamamlıq və ya uyğunsuzluq aşkar edildikdə valideynə bu barədə məlumat verilir və çatışmazlıqların aradan qaldırılması üçün 3 (üç) iş günü müddət müəyyən edilir.

2.7.6. Valideyn məlumat verildiyi tarixdən etibarən 3 (üç) iş günü müddətində natamamlığı və ya uyğunsuzluğu aradan qaldırmalıdır. Nəzərdə tutulmuş müddətdə natamamlıq və ya uyğunsuzluq aradan qaldırılmadıqda, qeydiyyat təsdiq edilmir.

2.7.7. Qeydiyyatın təsdiqlənməsində “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 8.9-cu maddəsində göstərilən şəxslərə üstünlük verilir, daha sonra isə müraciətin edilmə vaxtı nəzərə alınaraq növbəlilik prinsipi əsasında qeydiyyat təsdiqlənir.

2.7.8. Qeydiyyatı təsdiqlənmiş valideynlər layihənin iştirakçısı və tərəfdaşı hesab olunurlar.

## 2.8. QALİB LAYİHƏLƏR ÜZRƏ MÜQAVİLƏLƏRİN BAĞLANMASI VƏ MALİYYƏLƏŞDİRİLMƏSİ

2.8.1. Təhsilalanların cəlb edilməsi üçün müəyyən edilmiş müddət başa çatdıqdan sonra 20 (iyirmi) iş günü ərzində bu şərtlər toplusunun 2 nömrəli və 3 nömrəli Əlavələrinə uyğun olaraq Nazirlik ilə müsabiqə qalibi arasında maliyyələşdirmə müqaviləsi və müsabiqə qalibi ilə valideyn arasında xidmət müqaviləsi bağlanılır.

2.8.2. Maliyyələşdirmə müqaviləsinin ümumi məbləği qeydiyyatı təsdiq edilmiş təhsilalanların sayından və onların təhsil alacaqları ayların sayından asılı olaraq müəyyən edilir.

2.8.3. Qeydiyyatı təsdiq edilmiş təhsilalanların sayı qalib layihədə göstərilən saydan az olduqda və ya müsabiqə qalibi maliyyələşdirmə müqaviləsini bağlamaqdan imtina etdikdə, bal sıralamasına görə növbəti ən yüksək bal toplamış iddiaçı qalib elan olunur. Bu halda həmin iddiaçıya layihədə göstərdiyi saydan artıq olmayan sayda təhsilalanların cəlb edilməsi məqsədilə 30 (otuz) təqvim günü müddət verilir. Bu barədə məlumat Nazirliyin rəsmi internet saytında yerləşdirilir, mediada dərc edilir və qeydiyyatdan keçmiş valideynlərin şəxsi kabinetlərinə göndərilir. Qeydiyyatın təsdiqlənməsi zamanı “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 8.9-cu maddəsində göstərilən şəxslərə, eləcə də maliyyələşmə müqaviləsini bağlamaqdan imtina etmiş özəl məktəbəqədər təhsil müəssisəsində qeydiyyatı təsdiqlənmiş şəxslərə üstünlük verilir, daha sonra isə müraciətin edilmə vaxtı nəzərə alınaraq növbəlilik prinsipi əsasında qeydiyyat təsdiqlənir. Qeydiyyatı təsdiqlənən valideynlər avtomatik olaraq layihə iştirakçısına və tərəfdaşına çevrilirlər.

## 2.9. MÜQAVİLƏLƏRİN İCRASININ MONİTORİNQİ VƏ HESABATI

2.9.1. Nazirlik maliyyələşdirmə müqavilələrinin icrasına nəzarəti həyata keçirir və bu məqsədlə hesabatlar (rüblük, yarımillik, illik, aralıq və ya yekun) tələb etmək hüququna malikdir.
2.9.2. Müsabiqə qalibləri müqavilələrin icrası başa çatdıqdan sonra 15 (on beş) iş günündən gec olmayaraq, Nazirliyin müəyyən etdiyi formada və vaxtda müqavilənin icrası ilə bağlı arayış və hesabatları, habelə bu məqsədlə tələb olunan digər sənədləri Nazirliyə təqdim edirlər.
2.9.3. Nazirlik hesabatları yoxladıqdan sonra onları təsdiq edir və bu barədə özəl tərəfdaşı elektron poçt və ya digər vasitələrlə (poçt rabitəsi) məlumatlandırır.

## 3. ƏLAVƏLƏR

---

## ƏLAVƏ 1. MƏKTƏBƏQƏDƏR TƏHSİL SAHƏSİNDƏ VALİDEYN-DÖVLƏT-ÖZƏL ƏMƏKDAŞLIĞINA ƏSASLANAN MALİYYƏLƏŞMƏ MÜSABİQƏSİNƏ TƏQDİM EDİLƏCƏK LAYİHƏ TƏKLİFİNİN NÜMUNƏVİ FORMASI

### 1. ÜMUMİ MƏLUMAT

- Məktəbəqədər təhsil müəssisəsinin tam adını, hüquqi ünvanını və VÖEN-inin daxil edin.
- Məktəbəqədər təhsil müəssisəsinin məktəbəqədər təhsil fəaliyyət növü ilə məşğul olmasına icazəni təsbit edən lisenziya nömrəsini və tarixini daxil edin.
- Məktəbəqədər təhsil müəssisəsinin fəaliyyət ünvanını daxil edin.
- Məktəbəqədər təhsil müəssisəsinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin altsistemində (MTİS) göstərilmiş ümumi tutumunu daxil edin.
- Məktəbəqədər təhsil müəssisəsinin 1 təhsilalana düşən aylıq təhsil haqqını (Azərbaycan bölməsi üzrə) daxil edin.
- Məktəbəqədər təhsil müəssisəsinin səlahiyyətli nümayəndəsinin (dövlət reyestrindən çıxarışda qeyd edilmiş qanuni təmsilçisi və ya təmsiletmə səlahiyyəti verilmiş digər şəxs) adını, soyadını, atasının adını, vəzifəsini və əlaqə nömrələrini daxil edin.

### 2. LAYİHƏNİN TƏSVİRİ

- Layihənin adını, məqsədini və əhəmiyyətlilik baxımından əsaslandırılmasını daxil edin.
- Layihəyə cəlb edilməsi nəzərdə tutulan təhsilalanların sayını daxil edin (yalnız Azərbaycan bölməsi nəzərdə tutulmalıdır).
- Təhsil proqramları və resursları (müəssisədə tətbiq olunan təhsil proqramları, istifadə olunan tədris vəsaitləri, avadanlıqlar, oyun və oyuncaqların keyfiyyəti və məqsədəuyğunluğu və s.) barədə məlumatları daxil edin.
- Uşaqların nailiyyətlərinin izlənilməsi mexanizmləri və bu istiqamətlərdə digər məsələləri təsvir edin.
- Uşaqlara göstəriləcək psixososial dəstək (uşaqların emosional rifahına, ünsiyyət bacarıqlarına, sosiallaşmasına dəstək göstərilməsi, xüsusi qayğıya ehtiyacı olan təhsilalanlara fərdi yanaşmanın təmin olunması və s.) elementlərini təsvir edin.
- Təhsilalanların gündəlik rejiminin təşkili (yuxu, qidalanma, oyun və təlim fəaliyyətlərinin balanslaşdırılmış şəkildə qurulması və s.) barədə məlumatları daxil edin.
- Uşaqların qidalanması (qida rasionunun müvafiq qida standartlarına uyğunluğu, yaş qruplarına görə balanslı tərkibin təmin edilməsi, menyu cədvəlləri, yeməklərin keyfiyyətinə nəzarət sistemi və s.) barədə məlumatları daxil edin.
- Sağlamlıq, gigiyena nəzarəti (təhsilalanların şəxsi gigiyenasına dəstək, gündəlik tibbi müşahidə, ilkin tibbi yardım və s.) və bu istiqamətlərdə digər məsələləri təsvir edin.

3. **MADDİ-TEXNİKİ BAZA VƏ İNFRASTRUKTUR**

- Məktəbəqədər təhsil müəssisəsinin binası barədə məlumatı, o cümlədən binanın ümumi sahəsini (kv.m) və mərtəbəliliyini təsvir edin.
- Layihənin icrasında istifadə olunacaq tədris, yataq və digər əsas funksional otaqların sayını, təyinatını və təhsilalanların ehtiyaclarına uyğunluğunu təsvir edin.
- Mətbəx və yeməkxana infrastrukturu barədə məlumat verin.
- Məktəbəqədər təhsil müəssisəsinin yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə tətbiq olunan tədbirləri (yanğın siqnalizasiya sistemi, ilkin yanğınsöndürmə vasitələri, təxliyə planı və çıxışları, əməkdaşların təlimatlandırılması və digər müvafiq təhlükəsizlik tədbirləri) təsvir edin.
- Məktəbəqədər təhsil müəssisəsinin sanitariya-gigiyena normalarına (təmizlik, havalandırma, içməli su və s.) uyğunluğu barədə məlumat verin.
- Təhsilalanların fiziki təhlükəsizliyinin güvənliliyinə dair (oyun meydançalarının təhlükəsizliyi, iti künclərin qorunması, qapı-pəncərə sistemləri və s.) məlumatları daxil edin.
- Məktəbəqədər təhsil müəssisəsində mühafizə, giriş-çıxışa nəzarət (kameralar, giriş-çıxış qeydiyyatı, təhsilalanların qəbulu və təhvili və s.) və bu istiqamətlərdə digər məsələləri təsvir edin.

4. **KADR POTENSİALI**

- Məktəbəqədər təhsil müəssisəsində çalışan pedaqoji işçilərin ümumi sayı, onların vəzifələr üzrə bölgüsü və layihənin icrasında iştirak edəcək işçi heyəti barədə məlumat verin.
- Məktəbəqədər təhsil müəssisəsinin rəhbər və pedaqoji heyətinin sayı, vəzifələri, təhsil səviyyəsi (peşə, orta ixtisas və ya ali təhsil, ixtisası göstərilməklə), habelə məktəbəqədər təhsil sahəsində iş təcrübəsi (illər göstərilməklə) barədə məlumat təqdim edin.
- Məktəbəqədər təhsil müəssisəsində rəhbər və pedaqoji işçilərin seçilməsi və işə qəbulu, fəaliyyətinin idarə olunması, peşəkar inkişafı, fəaliyyətinin qiymətləndirilməsi, motivasiya və stimullaşdırılması mexanizmləri, habelə insan resurslarının idarə edilməsinə dair tətbiq olunan digər yanaşmaları təsvir edin.

5. **ƏMƏKDAŞLIQ VƏ HESABATLILIQ**

- Valideynlərlə əməkdaşlığın (valideynlərlə müntəzəm məlumat mübadiləsi və qarşılıqlı əməkdaşlığın qurulması) qurulması mexanizmlərini təsvir edin.
- Davamiyyətin monitorinq mexanizmləri, sənədləşdirmə metodikası və bu istiqamətlərdə digər məsələləri təsvir edin.

**Məktəbəqədər təhsil müəssisəsinin adı**
VÖEN:
Bank:
Kodu:
Bank VÖEN:
H/h:

M/h:
SWIFT:

**Məktəbəqədər təhsil müəssisəsinin səlahiyyətli nümayəndəsi**

---

*(ad, soyad, ata adı)*

---

*(imza və möhür)*

**ƏLAVƏ 2. Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə müsabiqəsi əsasında Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə özəl tərəfdaş arasında bağlanılan maliyyələşdirmə müqaviləsinin**

## LAYİHƏSİ

## MALİYYƏLƏŞDİRMƏ MÜQAVİLƏSİ № XXXXXX

**Bakı şəhəri** **"__" ________ 2026-cı il**

Bu maliyyələşdirmə müqaviləsi (bundan sonra – Müqavilə) bir tərəfdən hüquqi ünvanı Bakı şəhəri, Xətai prospekti 49 olan Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (VÖEN: 1500046011) (bundan sonra – Nazirlik) və digər tərəfdən hüquqi ünvanı ___________ olan, ___________ nömrəli xüsusi lisenziya əsasında ______________________ünvanında məktəbəqədər təhsil fəaliyyət növünü həyata keçirən, "Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modeli müsabiqəsi"nin (bundan sonra – Müsabiqə) qaliblərindən biri olan ____________ (VÖEN: ____________) (bundan sonra – Təhsil Müəssisəsi) arasında (bundan sonra ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlanacaq) bağlanılmışdır.

Müqavilənin şərtlərinə əsasən Təhsil Müəssisəsi Müsabiqə çərçivəsində müəssisəyə qəbul olunmuş təhsilalanlara məktəbəqədər təhsil xidmətlərinin göstərilməsini, Nazirlik isə aşağıdakı cədvəl əsasında hesablanmış _________(______________) manat məbləğində dövlət dəstəyi məbləğinin aylıq əsaslarla təhsilalanların sayından asılı olaraq Təhsil Müəssisəsinə ödənilməsini təmin edir.

| Müsabiqə çərçivəsində Təhsil Müəssisəsinə qəbul olunmuş təhsilalanların sayı | Təhsil müddəti (ay) | Xidmətlərin həcmi (nəfər-ay) | Bağçanın 1 təhsilalana düşən aylıq təhsil haqqı | o cümlədən: | | Dövlət dəstəyinin (müqavilənin) ümumi məbləği |
|---|---|---|---|---|---|---|
| | | | | dövlət dəstəyinin aylıq məbləği | valideynin üzərinə düşən aylıq məbləğ | |
| A | B | C (A*B) | D | E | F (D-E) | G (C*E)[1] |
| | | | __AZN | __AZN | __AZN | __AZN |

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu müqavilədə istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. təhsilalanlar – Müsabiqə çərçivəsində Təhsil Müəssisəsinə qəbul olunmuş 1-6 yaşlı uşaqlar;

1.1.2. valideynlər – Təhsilalanların valideynləri və ya digər qanuni nümayəndələri;

1.1.3. layihə – Təhsil Müəssisəsinin müsabiqəyə təqdim etdiyi təklif;

1.1.4. xidmət müqaviləsi – Təhsil Müəssisəsi ilə valideyn arasında məktəbəqədər təhsil xidmətlərinin göstərilməsinə dair bağlanılmış müqavilə

1.1.5. MTİS – Məktəbəqədər Təhsil Müəssisələrinin İnformasiya Sistemi (Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sisteminin alt sistemi);

1.1.6. bq.edu.az – məktəbəqədər təhsil müəssisələrinə elektron sənəd qəbulu sistemi;

[1] G sütununda göstərilən məbləğ dövlət dəstəyinin ümumi məbləğidir. Faktiki ödənişlər yalnız 4.1-ci bəndə uyğun olaraq, valideyn ödənişi təsdiqlənmiş hər təhsilalan və ay üzrə hesablanır.

1.1.7. mygov – Azərbaycan Respublikasının rəqəmsal hökumət platforması.

## 2. MÜQAVİLƏNİN PREDMETİ

2.1. Bu Müqavilənin predmeti Müsabiqə çərçivəsində Təhsil Müəssisəsi tərəfindən təqdim edilən Layihəyə (əlavə olunur) uyğun olaraq məktəbəqədər təhsil xidmətlərinin göstərilməsi, Nazirlik tərəfindən həmin xidmətlərin dövlət dəstəyi hesabına maliyyələşdirilməsi, habelə bu münasibətlə əlaqədar Tərəflərin hüquq və vəzifələrinin müəyyən edilməsidir.

2.2. Təhsil Müəssisəsi bu Müqavilə və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə uyğun olaraq məktəbəqədər təhsil xidmətlərini göstərməyi, Nazirlik isə bu Müqavilədə nəzərdə tutulmuş şərtlərlə dövlət dəstəyi məbləğinin maliyyələşdirilməsini öhdəsinə götürür.

## 3. MÜQAVİLƏNİN QÜVVƏDƏ OLMA VƏ İCRA MÜDDƏTİ

3.1. Müqavilə imzalandığı tarixdən qüvvəyə minir və Müqavilənin 11-ci bəndinin müddəaları nəzərə alınmaqla, 31 avqust 2027-ci il tarixinədək qüvvədə qalır. Müqavilə üzrə xidmətlərin icra müddəti __ _____ 2026-cı il tarixindən başlayır və 30 iyun 2027-ci il tarixinədək davam edir.

## 4. DÖVLƏT DƏSTƏYİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ ŞƏRTLƏRİ

4.1. Təhsil Müəssisəsi Valideynlə xidmət müqaviləsi bağlandıqdan dərhal sonra müqavilənin əhatə etdiyi hər bir ay üzrə Valideyn tərəfindən ödənilməli olan aylıq məbləğə dair elektron hesab-fakturaları **www.bq.edu.az saytı** vasitəsilə formalaşdırır. Valideyn istənilən ayın hesab-fakturasında göstərilən məbləği istənilən zaman, lakin hesab-fakturanın əhatə etdiyi ayın ilk 10 (on) təqvim günündən gec olmayaraq "mygov" platforması vasitəsilə ödəyir. Valideynin üzərinə düşən aylıq məbləğ bu Müqaviləyə uyğun olaraq valideyn tərəfindən **"mygov" platforması** vasitəsilə Təhsil Müəssisəsinə tam ödənildikdən sonra, həmin aya münasibətdə dövlət dəstəyinin məbləği Təhsil Müəssisəsinin Nazirliyə təqdim etdiyi müraciət və elektron qaimə-fakturalar əsasında 15 (on beş) iş günündən gec olmayaraq Nazirlik tərəfindən Təhsil Müəssisəsinə ödənilir.

4.2. Təhsil Müəssisəsi təhsil haqqının yalnız Valideyn tərəfindən ödənilən hissəsinə və ya yalnız dövlət dəstəyi hesabına maliyyələşdirilən hissəsinə ayrıca endirim tətbiq edə bilməz. Endirim aylıq təhsil haqqının məbləğinə münasibətdə edilə bilər və bu zaman Valideynin üzərinə düşən aylıq məbləğlə dövlət dəstəyinin aylıq məbləği mütənasib qaydada yenidən hesablanmaqla bu Müqaviləyə dəyişiklik formasında rəsmiləşdirilir.

4.3. Təhsil Müəssisəsi bu Müqavilənin qüvvədə olduğu müddətdə təhsil xidmətləri üzrə aylıq təhsil haqqının məbləğini, o cümlədən dövlət dəstəyi hesabına maliyyələşdirilən aylıq məbləği artıra bilməz.

## 5. TƏHSİLANLARIN TƏHSİL MÜƏSSİSƏSİNƏ QƏBULU VƏ ÇIXARILMASI

5.1. Təhsil Müəssisəsi bu Müqavilənin icrası müddətində təhsilalanların cəlb olunması üçün ayrılmış yerlərə yalnız Azərbaycan bölməsi üzrə qəbul aparır və təhsilalanların qəbulunu **www.bq.edu.az saytı** vasitəsilə həyata keçirir.

5.2. Təhsil Müəssisəsi www.bq.edu.az **saytı** vasitəsilə qəbul edilmiş təhsilalanın Valideyni ilə xidmət müqaviləsini bu Müqavilənin bağlanılmasından sonra **7 (yeddi) təqvim günü** müddətində bağlayır. Göstərilən müddət ərzində Valideyn tərəfindən xidmət müqaviləsinin bağlanılmasından imtina edildikdə və ya xidmət müqaviləsinin bağlanması üçün zəruri hərəkətlər həyata keçirilmədikdə, Təhsil Müəssisəsi həmin təhsilalanın qəbulunu **"MTİS"** vasitəsilə ləğv edir və növbəlilik prinsipi əsasında növbəti təhsilalanın qəbulunu həyata keçirir.

5.3. Təhsil Müəssisəsi Valideynlə xidmət müqaviləsi bağlandıqdan dərhal sonra müqavilənin əhatə etdiyi hər bir ay üzrə Valideyn tərəfindən ödənilməli olan aylıq təhsil haqqına dair elektron hesab-fakturanı www.bq.edu.az **saytı** vasitəsilə formalaşdırır. Valideyn istənilən ayın hesab-fakturasında göstərilən məbləği istənilən zaman, lakin hesab-fakturanın əhatə etdiyi ayın ilk 10 (on) təqvim günündən gec olmayaraq ödəyir.

5.4. Təhsilalanın Təhsil Müəssisəsindən çıxarılması üçün əsas yarandıqda, Təhsil Müəssisəsi həmin halı təsdiq edən sənədlər əsasında müvafiq qərar qəbul edir, bu barədə məlumatları dərhal **MTİS-də** və digər müvafiq informasiya sistemlərində yeniləyir, habelə www.bq.edu.az **saytı** vasitəsilə qanunvericiliyə uyğun müvafiq əməliyyatları həyata keçirir.

5.5. Təhsilalanın Təhsil Müəssisəsindən çıxarıldığı tarixdən etibarən həmin təhsilalana münasibətdə dövlət dəstəyinin maliyyələşdirilməsi dayandırılır. Təhsilalanın Təhsil Müəssisəsindən çıxarılması nəticəsində boşalmış yerə yeni təhsilalanın qəbulu yalnız **"mygov" platforması** vasitəsilə həyata keçirilir.

## 6. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

6.1. Nazirliyin hüquqları aşağıdakılardır:

6.1.1. Bu Müqavilənin icrasına nəzarəti həyata keçirmək, Təhsil Müəssisəsinin bu Müqavilədən irəli gələn öhdəliklərinin icra vəziyyətini qiymətləndirmək və monitorinq tədbirlərini həyata keçirmək;

6.1.2. Bu Müqavilənin icrası ilə bağlı Təhsil Müəssisəsindən zəruri məlumatları, sənədləri, hesabatları, izahatları və digər məlumatları tələb etmək;

6.1.3. Təhsil Müəssisəsi tərəfindən bu Müqavilənin və qanunvericiliyin tələblərinin pozulması halları aşkar edildikdə, həmin pozuntuların aradan qaldırılmasını tələb etmək, bu məqsədlə yazılı və ya elektron bildiriş göndərmək;

6.1.4. Bu Müqavilədə və qanunvericilikdə nəzərdə tutulmuş hallarda dövlət dəstəyi məbləğinin ödənilməsini dayandırmaq;

6.1.5. Bu Müqavilədə nəzərdə tutulmuş hallarda Müqaviləyə birtərəfli qaydada xitam vermək;

6.1.6. Bu Müqavilədə və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

6.2. Nazirliyin vəzifələri aşağıdakılardır:

6.2.1. Təhsil Müəssisəsi tərəfindən bu Müqavilənin icrası ilə bağlı təqdim edilən icra hesabatlarını müəyyən edilmiş müddətdə nəzərdən keçirmək, onların nəticələri barədə Təhsil Müəssisəsini məlumatlandırmaq, aşkar edilmiş çatışmazlıqlar olduqda isə onların aradan qaldırılması üçün Təhsil Müəssisəsinə müvafiq bildiriş göndərmək;

6.2.2. Bu Müqavilənin şərtlərinə uyğun olaraq təqdim edilmiş və yoxlanılaraq uyğun hesab edilmiş elektron qaimə-fakturalar əsasında dövlət dəstəyinin məbləğini Təhsil Müəssisəsinə ödəmək;
6.2.3. Bu Müqavilənin icrası zamanı aşkar edilmiş nöqsanlar barədə Təhsil Müəssisəsinə yazılı və ya elektron formada bildiriş göndərmək, həmin bildirişdə nöqsanların aradan qaldırılması üçün müəyyən edilmiş müddəti və yerinə yetirilməsi tələb olunan tədbirləri göstərmək;
6.2.4. Öz səlahiyyətləri daxilində bu Müqavilənin icrası məqsədilə istifadə olunan müvafiq elektron informasiya sistemlərinin dayanıqlı fəaliyyətinin təmin edilməsi istiqamətində zəruri tədbirlər görmək, habelə elektron informasiya sistemlərindən istifadə ilə bağlı zərurət yarandıqda müvafiq izahat və metodiki tövsiyələr vermək;
6.2.5. Təhsil Müəssisəsi tərəfindən bu Müqavilənin icrası ilə bağlı təqdim olunan müraciətlərə, sorğulara və digər sənədlərə qanunvericilikdə və bu Müqavilədə müəyyən edilmiş müddətlərdə baxmaq və nəticəsi barədə Təhsil Müəssisəsini məlumatlandırmaq;
6.2.6. Bu Müqavilədə və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.
6.3. Təhsil Müəssisəsinin hüquqları aşağıdakılardır:
6.3.1. Bu Müqavilənin şərtlərinə uyğun olaraq dövlət dəstəyinin məbləğinin Nazirlik tərəfindən ödənilməsini tələb etmək;
6.3.2. Bu Müqavilədə və Valideynlə bağlanılmış xidmət müqaviləsində nəzərdə tutulmuş hallarda, Valideyn tərəfindən aylıq təhsil haqqının onun üzərinə düşən hissəsi müəyyən edilmiş müddətdə ödənilmədikdə və ya xidmət müqaviləsinin şərtləri ciddi şəkildə pozulduqda, həmin müqaviləyə birtərəfli qaydada xitam vermək və bu barədə MTİS-də müvafiq dəyişikliklər etmək;
6.3.3. Bu Müqavilədə və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.
6.4. Təhsil Müəssisəsinin vəzifələri aşağıdakılardır:
6.4.1. Məktəbəqədər təhsil xidmətlərini bu Müqaviləyə, dövlət təhsil standartlarına və bu sahəni tənzimləyən digər normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək;
6.4.2. Təhsil xidmətlərinin göstərilməsi zamanı sanitar-gigiyenik, yanğın təhlükəsizliyi və digər təhlükəsizlik tələblərinə riayət olunmasını, habelə təhsilalanlar üçün təhlükəsiz təhsil mühitinin yaradılmasını təmin etmək;
6.4.3. Bu Müqavilənin qüvvədə olduğu müddətdə müsabiqədə qalib seçilməsinə əsas olmuş maddi-texniki bazanı, insan resurslarını və digər zəruri resursları saxlamaq, onların fasiləsiz mövcudluğunu və fəaliyyətini təmin etmək;
6.4.4. Təhsilalanların təhlükəsizliyinin təmin edilməsi məqsədilə tədris otaqlarında müşahidə kameraları quraşdırmaq, onların fasiləsiz fəaliyyətini təmin etmək və müvafiq giriş məlumatlarını Nazirliyə təqdim etmək;
6.4.5. Nazirlik tərəfindən müqavilənin icrası ilə bağlı aşkar edilmiş nöqsanlar barədə bildiriş aldıqda, həmin bildirişdə müəyyən edilmiş müddətdə nöqsanları aradan qaldırmaq və görülmüş tədbirlər barədə Nazirliyi məlumatlandırmaq;
6.4.6. Nazirliyin həyata keçirdiyi monitorinq, qiymətləndirmə və digər nəzarət tədbirlərinin aparılması üçün zəruri şərait yaratmaq, Nazirliyin müqavilənin icrası ilə bağlı tələb etdiyi sənədləri, məlumatları və izahatları tam, düzgün, tələb olunan formada və müəyyən edilmiş müddətdə Nazirliyə təqdim etmək;

6.4.7. Bu Müqavilə çərçivəsində göstərilən xidmətlərə görə Valideyndən bu Müqavilədə və Valideynlə bağlanılmış xidmət müqaviləsində nəzərdə tutulmuş ödənişlərdən başqa hər hansı əlavə ödəniş və ya digər maliyyə xarakterli tələb irəli sürməmək (bu bənd Təhsil Müəssisəsinin müsabiqə zamanı təqdim etdiyi layihədə nəzərdə tutulmayan və Valideynin təşəbbüsü ilə ayrıca sifariş edilən əlavə xidmətlərə şamil edilmir);

6.4.8. Dövlət dəstəyinin qanunsuz əldə edilməsinə, artırılmasına və ya saxlanılmasına yönəlmiş hər hansı hərəkətə yol verməmək, o cümlədən Valideyn və ya digər şəxslərlə bu məqsədlə hər hansı qanunsuz razılaşma bağlamamaq və hüquqlardan sui-istifadə etməmək;

6.4.9. Təhsilalanların, onların valideynlərinin və digər şəxslərin şəxsi məlumatlarının toplanılması, emalı, saxlanılması, istifadəsi və ötürülməsini Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun həyata keçirmək, həmin məlumatların məxfiliyinin, bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi üçün zəruri təşkilati və texniki tədbirlər görmək;

6.4.10. Bu Müqavilə üzrə üzərinə götürdüyü hüquq və öhdəlikləri, habelə məktəbəqədər təhsil xidmətlərinin göstərilməsini tam və ya qismən üçüncü şəxslərə verməmək, həvalə etməmək və ya subpodrat əsasında təşkil etməmək;

6.4.11. MTİS-də yerləşdirilən məlumatların tamlığını, düzgünlüyünü və vaxtında yenilənməsini təmin etmək, habelə həmin məlumatlarda dəyişiklik baş verdiyi hallarda onları qanunvericilikdə və bu Müqavilədə nəzərdə tutulmuş qaydada və müddətdə sistemə daxil etmək;

6.4.12. Nazirliyin müəyyən etdiyi forma və müddətlərdə yarımillik hesabatları, habelə Nazirliyin tələbi olduqda aralıq hesabatları təqdim etmək;

6.4.13. Bu Müqavilə üzrə öhdəliklərin icrası başa çatdıqdan sonra, lakin Müqavilənin qüvvədə olma müddəti bitmədən Nazirliyin müəyyən etdiyi forma və qaydada yekun hesabatı, habelə tələb olunan digər sənədləri Nazirliyə təqdim etmək;

6.4.14. Bu Müqavilədə və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 7. MÜQAVİLƏNİN DİLİ

7.1. Bu Müqavilə Azərbaycan dilində tərtib edilir və şərh olunur.

7.2. Bu Müqavilənin icrası ilə bağlı Tərəflər arasında həyata keçirilən bütün yazışmalar, bildirişlər, müraciətlər, razılaşmalar və sənəd mübadiləsi Azərbaycan dilində aparılır.

7.3. Bu Müqavilə üzrə hər hansı sənəd və ya məlumat xarici dildə təqdim edildikdə, zərurət olduqda, onun Azərbaycan dilinə tərcüməsi də təqdim edilir. Tərəflər arasında ziddiyyət yarandığı halda Azərbaycan dilində olan mətn əsas götürülür.

## 8. MƏXFİLİK

8.1. Tərəflər bu Müqavilənin bağlanması, icrası və ya xitamı ilə əlaqədar bir-birindən əldə etdikləri, qanunvericiliyə və ya mahiyyətinə görə məxfi hesab olunan sənədlərin, məlumatların və digər informasiyanın məxfiliyini qorumağı, digər Tərəfin əvvəlcədən yazılı razılığı olmadan həmin məlumatları üçüncü şəxslərə açıqlamamağı və bu Müqavilənin icrası ilə bağlı olmayan məqsədlər üçün istifadə etməməyi öhdələrinə götürürlər.

8.2. Tərəflər bu Müqavilənin icrası zamanı əldə etdikləri məxfi məlumatların qanunsuz açıqlanmasının, yayılmasının, surətinin çıxarılmasının, dəyişdirilməsinin və ya üçüncü şəxslərə verilməsinin qarşısını almaq üçün zəruri təşkilati və texniki tədbirlər görməli, həmin məlumatların təhlükəsizliyini təmin etməlidirlər.

8.3. Bu Müqavilədə nəzərdə tutulmuş məxfilik öhdəliyi aşağıdakı hallara şamil edilmir:

8.3.1. məlumatın açıqlanması Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məcburi olduqda;

8.3.2. qanuni qüvvəyə minmiş məhkəmə qərarı və ya səlahiyyətli dövlət orqanının qanuni tələbi əsasında məlumat təqdim edildikdə;

8.3.3. məlumatın açıqlanmasına digər Tərəfin əvvəlcədən yazılı razılığı olduqda;

8.3.4. məlumat qanunvericiliyə uyğun olaraq açıq informasiya hesab edildikdə.

8.4. Təhsil Müəssisəsinin Valideynlər və ya digər maliyyələşdirici şəxslərlə bağladığı xidmət müqavilələrində dövlət dəstəyinin mövcudluğu, dövlət dəstəyinin məbləği, həmin məbləğin Nazirlik tərəfindən maliyyələşdirilməsi, habelə bu Müqavilənin icrası üçün zəruri olan digər məlumatların göstərilməsi bu Müqavilə üzrə məxfilik öhdəliyinin pozulması kimi qiymətləndirilmir.

8.5. Tərəflər bu Müqavilənin icrası zamanı əldə etdikləri şəxsi məlumatların toplanılmasını, emal edilməsini, saxlanılmasını, istifadəsini, ötürülməsini və mühafizəsini Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun həyata keçirirlər.

8.6. Bu Müqavilə çərçivəsində əldə edilmiş məxfi məlumatlar Tərəflər tərəfindən yalnız bu Müqavilənin icrası məqsədilə istifadə olunur və bu Müqavilənin məqsədləri ilə əlaqəsi olmayan hər hansı məqsəd üçün istifadə edilə bilməz.

8.7. Bu maddədə nəzərdə tutulmuş məxfilik öhdəlikləri bu Müqaviləyə xitam verilməsindən, onun müddətinin başa çatmasından və ya hər hansı digər əsasla qüvvədən düşməsindən asılı olmayaraq qüvvədə qalır və qanunvericilikdə və ya həmin məlumatın hüquqi rejimində başqa müddət müəyyən edilmədiyi hallarda Tərəflər üçün məcburi olaraq saxlanılır

## 9. QARŞISIALINMAZ QÜVVƏ

9.1. Qarşısıalınmaz qüvvənin təsiri nəticəsində bu Müqavilə üzrə öhdəliklərini tam və ya qismən yerinə yetirə bilməyən Tərəf həmin öhdəliklərin icra edilməməsinə və ya lazımi qaydada icra edilməməsinə görə, qarşısıalınmaz qüvvənin mövcud olduğu müddətdə məsuliyyət daşımır.

9.2. Qarşısıalınmaz qüvvə dedikdə Tərəflərin iradəsindən və nəzarətindən kənarda baş verən, əvvəlcədən ağlabatan qaydada proqnozlaşdırılması və ya qarşısının alınması mümkün olmayan, habelə nəticələrinin aradan qaldırılması Tərəflərdən ağlabatan dərəcədə tələb edilə bilməyən hallar başa düşülür. Belə hallara, o cümlədən müharibə, hərbi əməliyyatlar, terror aktları, iğtişaşlar, təbii fəlakətlər, yanğınlar, daşqınlar, zəlzələlər, epidemiyalar, epizootiyalar, pandemiyalar, karantin rejimi, embarqolar, dövlət hakimiyyəti orqanlarının məcburi xarakter daşıyan qərarları və Tərəflərin iradəsindən asılı olmayan digər hallar aid edilir.

9.3. Qarşısıalınmaz qüvvə halı yarandıqda, həmin halın təsirinə məruz qalan Tərəf bu hal barədə, onun öhdəliklərin icrasına təsiri və ehtimal olunan davametmə müddəti haqqında digər Tərəfi 3 (üç) iş günü ərzində yazılı və ya elektron formada məlumatlandırmalıdır. Qarşısıalınmaz qüvvənin baş verməsini təsdiq edən

sənədlər mövcud olduqda, onlar da mümkün olan ən qısa müddətdə digər Tərəfə təqdim edilir.

9.4. Qarşısıalınmaz qüvvə aradan qaldırılanadək Tərəflərin həmin halın təsirinə məruz qalan öhdəliklərinin icrası dayandırılır. Qarşısıalınmaz qüvvənin təsirinə məruz qalmayan öhdəliklər isə mümkün olduğu hallarda icra edilməyə davam olunur.

9.5. Qarşısıalınmaz qüvvənin təsirinə məruz qalan Təhsil Müəssisəsi, Nazirlik tərəfindən başqa göstəriş verilmədiyi halda, qarşısıalınmaz qüvvənin təsirinə məruz qalmayan öhdəliklərini yerinə yetirməyə davam etməli, habelə qarşısıalınmaz qüvvənin təsirinin aradan qaldırılması və ya onun nəticələrinin minimuma endirilməsi üçün ağlabatan və mümkün tədbirlər görməlidir.

9.6. Qarşısıalınmaz qüvvə halı 1 (bir) aydan artıq davam etdikdə və bu səbəbdən Müqavilənin icrası faktiki olaraq mümkün olmadıqda, Tərəflər qarşılıqlı razılıq əsasında Müqaviləyə dəyişiklik edə və ya ona xitam verə bilərlər. Razılıq əldə edilmədikdə, hər bir Tərəf digər Tərəfi ən azı 10 (on) iş günü əvvəl yazılı qaydada xəbərdar etməklə Müqaviləyə birtərəfli qaydada xitam verə bilər.

## 10. MÜQAVİLƏDƏ DƏYİŞİKLİK

10.1. Bu Müqaviləyə dəyişikliklər yalnız Tərəflərin qarşılıqlı razılığı əsasında, yazılı formada tərtib edilmiş, bu Müqaviləyə aid olduğu açıq şəkildə göstərilən və Tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imzalanmış əlavə razılaşma əsasında edilir.

10.2. Yazılı formada rəsmiləşdirilməyən, bu Müqaviləyə aid olduğu açıq şəkildə göstərilməyən və ya Tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imzalanmayan hər hansı dəyişiklik və ya əlavə hüquqi qüvvəyə malik deyildir və Tərəflər üçün hüquq və vəzifələr yaratmır.

10.3. Bu Müqaviləyə edilmiş dəyişikliklər, əlavə razılaşmada başqa hal nəzərdə tutulmadıqda, imzalandığı tarixdən qüvvəyə minir və həmin tarixdən etibarən Tərəflər üçün məcburi hesab olunur.

## 11. MÜBAHİSƏLİ MƏSƏLƏLƏRİN HƏLLİ

11.1. Bu Müqavilənin bağlanması, icrası, dəyişdirilməsi, şərhi, qüvvədə olması və ya ona xitam verilməsi ilə əlaqədar Tərəflər arasında yaranan bütün mübahisələr və fikir ayrılıqları ilk növbədə danışıqlar və qarşılıqlı razılıq yolu ilə həll edilir.

11.2. Mübahisəli məsələlərin və qeyri-müəyyənliklərin həlli danışıqlar yolu ilə 30 (otuz) gün müddətində mümkün olmadıqda, bu məsələlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin şərtlərinə əsasən həll edilməlidir.

11.3. Bu Müqavilənin hər hansı müddəasının tam və ya qismən etibarsız, hüquqi qüvvəsini itirmiş və ya icra edilə bilməyən hesab edilməsi Müqavilənin digər müddəalarının etibarlılığına və icrasına təsir göstərmir. Belə halda Tərəflər etibarsız hesab edilmiş müddəanı onun məqsədinə və hüquqi nəticələrinə mümkün qədər uyğun olan yeni müddəa ilə əvəz etmək üçün zəruri tədbirlər görürlər.

11.4. Müqavilənin hər hansı müddəasının və ya şərtinin qadağan olunması və ya etibarsız/icraedilməz hesab edilməsi, Müqavilənin hər hansı digər müddəa və şərtlərinin etibarlılığına və ya icrasına təsir göstərmir.

## 12. MÜQAVİLƏYƏ XİTAM VERİLMƏSİ

12.1. Bu Müqaviləyə Azərbaycan Respublikasının qanunvericiliyində və bu Müqavilədə nəzərdə tutulmuş hallarda Tərəflərin qarşılıqlı razılığı ilə və ya birtərəfli qaydada xitam verilə bilər.

12.2. Nazirlik aşağıdakı hallarda Təhsil Müəssisəsinə yazılı və ya elektron bildiriş göndərməklə, pozuntunun xarakterindən asılı olaraq, ona bu pozuntunun aradan qaldırılması üçün ağlabatan müddət müəyyən edə və ya pozuntu aradan qaldırıla bilməyən və ya ciddi xarakter daşıyan hallarda bu Müqaviləyə tam və ya qismən birtərəfli qaydada xitam verə bilər:

12.2.1. Təhsil Müəssisəsi bu Müqavilə üzrə öhdəliklərini əhəmiyyətli dərəcədə pozduqda və ya Nazirliyin müəyyən etdiyi müddətdə aşkar edilmiş pozuntuları aradan qaldırmadıqda;

12.2.2. Təhsil Müəssisəsi tərəfindən saxta sənədlər, saxtalaşdırılmış məlumatlar və ya bilərəkdən həqiqətə uyğun olmayan məlumatlar təqdim edildikdə;

12.2.3. Təhsil Müəssisəsinin fəaliyyətinə dair lisenziya dayandırıldıqda, ləğv edildikdə və ya məktəbəqədər təhsil fəaliyyətini həyata keçirmək hüququna xitam verildikdə;

12.2.4. Təhsil Müəssisəsi müflis elan edildikdə, ödəmə qabiliyyətini itirdikdə və ya qanunvericilikdə nəzərdə tutulmuş qaydada ləğv edildikdə;

12.2.5. Bu Müqavilədə və ya qanunvericilikdə nəzərdə tutulmuş digər hallar baş verdikdə.

12.3. Bu Müqavilədə nəzərdə tutulmuş hallarda Nazirlik pozuntunun xarakterindən və nəticələrindən asılı olaraq dövlət dəstəyinin maliyyələşdirilməsini tam və ya qismən dayandıra, növbəti ödənişi həyata keçirməyə və ya bu Müqaviləyə xitam verə bilər.

12.4. Təhsil Müəssisəsi bu Müqaviləyə xitam verilməsinə səbəb olmuş halların aradan qaldırılması mümkün olduqda, Nazirlik tərəfindən müəyyən edilmiş müddət ərzində həmin pozuntuları aradan qaldırmaq hüququna malikdir. Pozuntular müəyyən edilmiş müddətdə tam aradan qaldırıldıqda və onların nəticələri aradan qalxdıqda, Nazirlik pozuntunun xarakterini nəzərə alaraq bu Müqaviləyə xitam verməkdən imtina edə bilər.

12.5. Bu Müqaviləyə xitam verilməsi Tərəfləri xitam tarixinədək yaranmış və icra edilməmiş öhdəliklərdən azad etmir.

## 13. YEKUN MÜDDƏALAR

13.1. Bu Müqavilədən irəli gələn münasibətlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Təhsil haqqında" və "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının qanunları, bu Müqavilənin bağlanmasına əsas olan Qaydalar, habelə bu sahəni tənzimləyən digər qüvvədə olan normativ hüquqi aktlarla tənzimlənir.

13.2. Bu Müqavilə ilə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həll edilir.

13.3. Bu Müqavilə Azərbaycan dilində 2 (iki) eyni hüquqi qüvvəyə malik nüsxədə tərtib edilmişdir. Müqavilənin bir nüsxəsi Nazirlikdə, digər nüsxəsi isə Təhsil Müəssisəsində saxlanılır.

## 14. RƏSMİ YAZIŞMALAR

14.1. Bu Müqavilənin icrası ilə bağlı Tərəflər arasında həyata keçirilən bütün bildirişlər, müraciətlər, razılıqlar, sorğular, hesabatlar və digər rəsmi yazışmalar yazılı və ya elektron formada həyata keçirilir.

14.2. Bu Müqavilədə başqa hal nəzərdə tutulmadıqda, elektron formada göndərilən sənədlər və bildirişlər aşağıdakı elektron poçt ünvanları vasitəsilə göndərilir:
**Nazirlik üçün:** vdo@edu.gov.az
**Təhsil Müəssisəsi üçün: ___________________________**
**Təhsil Müəssisəsinin əlaqə nömrəsi: _________________**

## 15. Tərəflərin bank rekvizitləri:

| | **Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi** | _____________ |
|---|---|---|
| VÖEN: | 1500046011 | |
| Bank: | Dövlət Xəzinədarlıq Agentliyi | |
| Kodu: | 210005 | |
| Bank VÖEN: | 1401555071 | |
| H/h: | AZ30CTRE00000000000002167628 | |
| M/h: | AZ41NABZ01360100000000003944 | |
| SWIFT | CTREAZ22 | |

_________________________________
*(imza və möhür)*
**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin səlahiyyətli nümayəndəsi**

_________________________________
*(imza və möhür)*
**Təhsil müəssisəsinin səlahiyyətli nümayəndəsi**

**ƏLAVƏ 3. Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə müsabiqəsi əsasında özəl məktəbəqədər təhsil müəssisəsi ilə valideyn arasında bağlanılan xidmət müqaviləsinin**

**LAYİHƏSİ**

## XİDMƏT MÜQAVİLƏSİ № XXXXXX

**Bakı şəhəri** **“__” ________ 2026-cı il**

Bu xidmət müqaviləsi (bundan sonra – Müqavilə) bir tərəfdən, hüquqi ünvanı ___________ olan, ___________ nömrəli xüsusi lisenziya əsasında ______________________ünvanında məktəbəqədər təhsil fəaliyyət növünü həyata keçirən, “Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modeli müsabiqəsi”nin (bundan sonra – Müsabiqə) qaliblərindən biri olan ____________ [VÖEN: ____________] (bundan sonra “Təhsil Müəssisəsi” adlandırılacaq) və digər tərəfdən ___________________________ (bundan sonra “Təhsilalan” adlandırılacaq) adından Valideyni (və ya digər qanuni nümayəndəsi) ___________________________ [ŞV: _______] (bundan sonra “Valideyn” adlandırılacaq) (bundan sonra ayrılıqda “Tərəf”, birlikdə “Tərəflər” adlandırılacaqlar) arasında aşağıdakı şərtlərlə bağlanmışdır.

Müqavilənin şərtlərinə əsasən Təhsil Müəssisəsi Müsabiqə çərçivəsində müəssisəyə qəbul olunmuş təhsilalana 30 iyun 2027-ci il tarixinədək məktəbəqədər təhsil xidmətlərinin göstərilməsini, Valideyn isə aşağıdakı cədvəl əsasında hesablanmış _________(______________) manat məbləğində valideynin üzərinə düşən təhsil haqqı məbləğinin Təhsil Müəssisəsinə ödənilməsini təmin edir.

| Bağçanın 1 təhsilalana düşən aylıq təhsil haqqı | o cümlədən: | | Təhsil müddəti (ay) | Valideynin ödəyəcəyi ümumi müqavilə məbləği |
|---|---|---|---|---|
| | Elm və Təhsil Nazirliyi tərəfindən maliyyələşdiriləcək aylıq məbləğ | valideynin üzərinə düşən aylıq məbləğ | | |
| A | B | C (A-B) | D | E (C*D) |
| __AZN | __AZN | __AZN | | __AZN |

## 1. MÜQAVİLƏNİN PREDMETİ

1.1. Bu Müqavilənin predmeti Təhsil Müəssisəsi tərəfindən Təhsilalana məktəbəqədər təhsil xidmətlərinin göstərilməsi, Valideyn tərəfindən bu Müqavilədə nəzərdə tutulmuş təhsil haqqının ödənilməsi, habelə bu münasibətlə əlaqədar Tərəflərin hüquq və vəzifələrinin müəyyən edilməsidir.

1.2. Təhsil Müəssisəsi bu Müqavilə və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə uyğun olaraq məktəbəqədər təhsil xidmətlərini göstərməyi, Valideyn isə bu Müqavilədə nəzərdə tutulmuş qaydada təhsil haqqının Valideyn tərəfindən ödənilməli olan hissəsini ödəməyi öhdəsinə götürür.

## 2. MÜQAVİLƏNİN QÜVVƏDƏ OLMA VƏ İCRA MÜDDƏTİ

2.1. Müqavilə imzalandığı tarixdən qüvvəyə minir. Müqavilə üzrə xidmətlərin icra müddəti növbəti təqvim ayının ilk günündən başlayır və 30 iyun 2027-ci il tarixinədək davam edir.

## 3. TƏHSİL HAQQI

3.1. Təhsil Müəssisəsi bu Müqavilə bağlandıqdan dərhal sonra müqavilənin əhatə etdiyi hər bir ay üzrə Valideyn tərəfindən ödənilməli olan aylıq məbləğə dair elektron hesab-fakturaları www.bq.edu.az saytı vasitəsilə formalaşdırır. Valideyn istənilən ayın hesab-fakturasında göstərilən məbləği istənilən zaman, lakin hesab-fakturanın əhatə etdiyi ayın ilk 10 (on) təqvim günündən gec olmayaraq **"mygov" platforması** vasitəsilə ödəyir.

3.2. Valideyn tərəfindən göstərilən müddətdə ödəniş həyata keçirilmədikdə, Təhsil Müəssisəsi bu Müqaviləyə birtərəfli qaydada xitam vermək və təhsilalanın MTİS-də qeydiyyatına xitam verilməsi üçün müvafiq tədbirləri görmək hüququna malikdir.

3.3. Dövlət dəstəyinin ödənilməsi Valideyn tərəfindən ödənilməli olan təhsil haqqının **"mygov" platforması** vasitəsilə tam ödənilməsindən sonra, Nazirlik ilə Təhsil Müəssisəsi arasında bağlanılmış müqavilədə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

3.4. Təhsil müəssisəsi təhsil haqqının yalnız Valideyn tərəfindən ödənilən hissəsinə və ya yalnız dövlət dəstəyi hesabına maliyyələşdirilən hissəsinə ayrıca endirim tətbiq edə bilməz. Endirim aylıq təhsil haqqının məbləğinə münasibətdə edilə bilər və bu zaman Valideynin üzərinə düşən aylıq məbləğlə dövlət dəstəyinin aylıq məbləği mütənasib qaydada yenidən hesablanmaqla bu Müqaviləyə dəyişiklik formasında rəsmiləşdirilir.

3.5. Təhsil Müəssisəsi bu Müqavilənin qüvvədə olduğu müddətdə təhsil xidmətləri üzrə aylıq təhsil haqqının məbləğini, o cümlədən Valideyn tərəfindən ödənilən aylıq məbləği artıra bilməz.

3.6. Təhsilalanın üzrlü və ya üzrsüz səbəbdən təhsil xidmətlərindən istifadə etməməsi, bu Müqavilədə və ya Azərbaycan Respublikasının qanunvericiliyində başqa hal nəzərdə tutulmadıqda, təhsil haqqının azaldılması, ödənilməməsi və ya geri qaytarılması üçün əsas hesab edilmir.

3.7. Bu Müqavilə çərçivəsində göstərilən xidmətlərə daxil olmayan və Valideynin təşəbbüsü ilə sifariş edilən əlavə xidmətlər, ekskursiyalar, istirahət, əyləncə və digər tədbirlər ayrıca ödəniş əsasında göstərilə bilər.

3.8. Valideyn bu Müqavilə üzrə aylıq təhsil haqqı məbləğinin ödənilməsi öhdəliyinin icrasını üçüncü şəxsə (sponsora) həvalə edə bilər. Bu halda Valideyn Müqavilə üzrə öhdəliklərinin lazımi qaydada icrasına görə Təhsil Müəssisəsi qarşısında məsuliyyət daşımağa davam edir.

## 4. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

4.1. Təhsil Müəssisəsinin hüquqları aşağıdakılardır:

4.1.1. Bu Müqavilədə nəzərdə tutulmuş qaydada təhsil haqqının vaxtında ödənilməsini Valideyndən tələb etmək;

4.1.2. Təhsilalanın məktəbəqədər təhsil xidmətlərindən istifadə etməsi üçün bu Müqavilədə və Təhsil Müəssisəsinin qanunvericiliyə uyğun müəyyən edilmiş daxili qaydalarında nəzərdə tutulmuş tələblərə əməl edilməsini tələb etmək;
4.1.3. Valideyn və ya Təhsilalan tərəfindən bu Müqavilənin şərtləri və ya Təhsil Müəssisəsinin qanunvericiliyə uyğun müəyyən edilmiş daxili qaydaları pozulduqda, pozuntunun aradan qaldırılmasını tələb etmək, zərurət olduqda yazılı xəbərdarlıq etmək və bu Müqavilədə nəzərdə tutulmuş hallarda Müqaviləyə birtərəfli qaydada xitam vermək;
4.1.4. Təhsilalanın davamiyyəti, sağlamlığı, təhlükəsizliyi və təhsil prosesinin təşkili ilə bağlı zəruri məlumatları Valideyndən tələb etmək;
4.1.5. Təhsilalanın inkişafının, təhlükəsizliyinin və keyfiyyətli məktəbəqədər təhsil xidmətlərinin təmin edilməsi məqsədilə qanunvericiliyə uyğun tədbirlər həyata keçirmək;
4.1.6. Valideynin əvvəlcədən yazılı razılığı əsasında Təhsilalanın ekskursiyalarda, gəzintilərdə və digər tədbirlərdə iştirakını təmin etmək, əlavə xərc tələb edən tədbirlər üzrə həmin xərclərin əvvəlcədən ödənilməsini tələb etmək;
4.1.7. Azərbaycan Respublikasının qanunvericiliyində və bu Müqavilədə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.
4.2. Təhsil Müəssisəsinin vəzifələri aşağıdakılardır:
4.2.1. Məktəbəqədər təhsil xidmətlərini bu Müqaviləyə, dövlət təhsil standartlarına və bu sahəni tənzimləyən digər normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək;
4.2.2. Təhsil xidmətlərinin göstərilməsi zamanı sanitar-gigiyenik, yanğın təhlükəsizliyi və digər təhlükəsizlik tələblərinə riayət olunmasını, habelə təhsilalanlar üçün təhlükəsiz təhsil mühitinin yaradılmasını təmin etmək;
4.2.3. Təhsil proqramının keyfiyyətlə həyata keçirilməsi üçün zəruri maddi-texniki bazanı, təhlükəsiz təlim mühitini və ixtisaslı pedaqoji heyəti təmin etmək;
4.2.4. Təhsilalanın davamiyyəti, inkişafı, davranışı və təhsil prosesi ilə bağlı mühüm hallar barədə Valideyni vaxtında məlumatlandırmaq.
4.2.5. Valideynin müraciətlərinə qanunvericiliyə və bu Müqaviləyə uyğun olaraq ağlabatan müddətdə baxmaq və cavab vermək.
4.2.6. Təhsilalanın şəxsi məlumatlarının və qanunla qorunan digər məlumatların məxfiliyini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qorumaq.
4.2.7. Təhsilalanın yaş xüsusiyyətləri nəzərə alınmaqla onun fiziki, intellektual, sosial və mənəvi inkişafına şərait yaratmaq.
4.2.8. Bu Müqavilədə və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.
4.3. Valideynin hüquqları aşağıdakılardır:
4.3.1. Təhsilalan üçün təhlükəsiz, sağlam və keyfiyyətli məktəbəqədər təhsil xidmətlərinin göstərilməsini tələb etmək;
4.3.2. Təhsilalanın davamiyyəti, inkişafı, davranışı və təhsil prosesi barədə Təhsil Müəssisəsindən məlumat almaq;
4.3.3. Təhsil Müəssisəsinə təhsil prosesinin təşkili ilə bağlı təkliflər vermək, habelə Təhsil Müəssisəsinə şikayət və ya müraciət etmək, onların nəticəsi barədə məlumat almaq;
4.3.4. Bu Müqavilədə və qanunvericilikdə nəzərdə tutulmuş hallarda Müqaviləyə xitam verilməsini tələb etmək;

4.3.5. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.
4.4. Valideynin vəzifələri aşağıdakılardır:
4.4.1. Təhsil haqqını bu Müqavilədə müəyyən edilmiş qaydada və müddətdə ödəmək;
4.4.2. Təhsilalanın bu Müqaviləyə və Təhsil Müəssisəsinin qanunvericiliyə uyğun müəyyən edilmiş daxili qaydalarına əməl etməsini təmin etmək;
4.4.3. Təhsilalanın davamiyyətini təmin etmək, onun üzrlü səbəbdən təhsil müəssisəsinə gəlmədiyi hallar barədə Təhsil Müəssisəsini vaxtında məlumatlandırmaq;
4.4.4. Təhsilalanın sağlamlıq vəziyyəti, xüsusi qayğıya ehtiyacı və ya təhsil prosesinə təsir göstərə biləcək digər hallar barədə Təhsil Müəssisəsinə düzgün və tam məlumat vermək;
4.4.5. Təhsilalanın təhlükəsizliyi, inkişafı və təhsil prosesi ilə bağlı Təhsil Müəssisəsinin qanunvericiliyə uyğun tələblərinə əməl etmək və əməkdaşlıq göstərmək;
4.4.6. Təhsil Müəssisəsinə təqdim etdiyi məlumatların düzgünlüyünə görə məsuliyyət daşımaq;
4.4.7. Bu Müqavilədə və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 5. MÜQAVİLƏNİN DİLİ

5.1. Bu Müqavilə Azərbaycan dilində tərtib edilir və şərh olunur.
5.2. Bu Müqavilənin icrası ilə bağlı Tərəflər arasında həyata keçirilən bütün yazışmalar, bildirişlər, müraciətlər, razılaşmalar və sənəd mübadiləsi Azərbaycan dilində aparılır.
5.3. Müqavilə üzrə hər hansı sənəd və ya məlumat xarici dildə təqdim edildikdə, zərurət olduqda, onun Azərbaycan dilinə tərcüməsi də təqdim edilir.
5.4. Tərəflər arasında ziddiyyət yarandığı halda Azərbaycan dilində olan mətn əsas götürülür.

## 6. MƏXFİLİK

6.1. Tərəflər bu Müqavilənin bağlanması, icrası və ya xitamı ilə əlaqədar bir-birindən əldə etdikləri, qanunvericiliyə və ya mahiyyətinə görə məxfi hesab olunan sənədlərin, məlumatların və digər informasiyanın məxfiliyini qorumağı, digər Tərəfin əvvəlcədən yazılı razılığı olmadan həmin məlumatları üçüncü şəxslərə açıqlamamağı və bu Müqavilənin icrası ilə bağlı olmayan məqsədlər üçün istifadə etməməyi öhdələrinə götürürlər.
6.2. Tərəflər bu Müqavilənin icrası zamanı əldə etdikləri məxfi məlumatların qanunsuz açıqlanmasının, yayılmasının, surətinin çıxarılmasının, dəyişdirilməsinin və ya üçüncü şəxslərə verilməsinin qarşısını almaq üçün zəruri təşkilati və texniki tədbirlər görməli, həmin məlumatların təhlükəsizliyini təmin etməlidirlər.
6.3. Bu Müqavilənin 6.1 və 6.2-ci bəndlərində nəzərdə tutulmuş məxfilik öhdəliyi aşağıdakı hallara şamil edilmir:
6.3.1. məlumatın açıqlanması Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məcburi olduqda;
6.3.2. qanuni qüvvəyə minmiş məhkəmə qərarı və ya səlahiyyətli dövlət orqanının qanuni tələbi əsasında məlumat təqdim edildikdə;
6.3.3. məlumatın açıqlanmasına digər Tərəfin əvvəlcədən yazılı razılığı olduqda;
6.3.4. məlumat qanunvericiliyə uyğun olaraq açıq informasiya hesab edildikdə.

6.3.5. Təhsil Müəssisəsinin Valideynlər və ya digər maliyyələşdirici şəxslərlə bağladığı xidmət müqavilələrində dövlət dəstəyinin mövcudluğu, dövlət dəstəyinin məbləği, həmin məbləğin Nazirlik tərəfindən maliyyələşdirilməsi, habelə bu Müqavilənin icrası üçün zəruri olan digər məlumatların göstərilməsi bu Müqavilə üzrə məxfilik öhdəliyinin pozulması kimi qiymətləndirilmir.

6.3.6. Tərəflər bu Müqavilənin icrası zamanı əldə etdikləri şəxsi məlumatların toplanılmasını, emal edilməsini, saxlanılmasını, istifadəsini, ötürülməsini və mühafizəsini Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun həyata keçirirlər.

6.3.7. Bu Müqavilə çərçivəsində əldə edilmiş məxfi məlumatlar Tərəflər tərəfindən yalnız bu Müqavilənin icrası məqsədilə istifadə olunur və bu Müqavilənin məqsədləri ilə əlaqəsi olmayan hər hansı məqsəd üçün istifadə edilə bilməz.

6.3.8. Bu maddədə nəzərdə tutulmuş məxfilik öhdəlikləri bu Müqaviləyə xitam verilməsindən, onun müddətinin başa çatmasından və ya hər hansı digər əsasla qüvvədən düşməsindən asılı olmayaraq qüvvədə qalır və qanunvericilikdə və ya həmin məlumatın hüquqi rejimində başqa müddət müəyyən edilmədiyi hallarda Tərəflər üçün məcburi olaraq saxlanılır.

## 7. QARŞISIALINMAZ QÜVVƏ

7.1. Qarşısıalınmaz qüvvənin təsiri nəticəsində bu Müqavilə üzrə öhdəliklərini tam və ya qismən yerinə yetirə bilməyən Tərəf həmin öhdəliklərin icra edilməməsinə və ya lazımi qaydada icra edilməməsinə görə, qarşısıalınmaz qüvvənin mövcud olduğu müddətdə məsuliyyət daşımır.

7.2. Qarşısıalınmaz qüvvə dedikdə Tərəflərin iradəsindən və nəzarətindən kənarda baş verən, əvvəlcədən ağlabatan qaydada proqnozlaşdırılması və ya qarşısının alınması mümkün olmayan, habelə nəticələrinin aradan qaldırılması Tərəflərdən ağlabatan dərəcədə tələb edilə bilməyən hallar başa düşülür. Belə hallara, o cümlədən müharibə, hərbi əməliyyatlar, terror aktları, iğtişaşlar, təbii fəlakətlər, yanğınlar, daşqınlar, zəlzələlər, epidemiyalar, epizootiyalar, pandemiyalar, karantin rejimi, embarqolar, dövlət hakimiyyəti orqanlarının məcburi xarakter daşıyan qərarları və Tərəflərin iradəsindən asılı olmayan digər hallar aid edilir.

7.3. Qarşısıalınmaz qüvvə halı yarandıqda, həmin halın təsirinə məruz qalan Tərəf bu hal barədə, onun öhdəliklərin icrasına təsiri və ehtimal olunan davametmə müddəti haqqında digər Tərəfi **3 (üç) iş günü** ərzində yazılı və ya elektron formada məlumatlandırmalıdır. Qarşısıalınmaz qüvvənin baş verməsini təsdiq edən sənədlər mövcud olduqda, onlar da mümkün olan ən qısa müddətdə digər Tərəfə təqdim edilir.

7.4. Qarşısıalınmaz qüvvə aradan qaldırılanadək Tərəflərin həmin halın təsirinə məruz qalan öhdəliklərinin icrası dayandırılır. Qarşısıalınmaz qüvvənin təsirinə məruz qalmayan öhdəliklər isə mümkün olduğu hallarda icra edilməyə davam olunur.

7.5. Qarşısıalınmaz qüvvə halı **1 (bir) aydan** artıq davam etdikdə və bu səbəbdən Müqavilənin icrası faktiki olaraq mümkün olmadıqda, Tərəflər qarşılıqlı razılıq əsasında Müqaviləyə dəyişiklik edə və ya ona xitam verə bilərlər. Razılıq əldə edilmədikdə, hər bir Tərəf digər Tərəfi ən azı **10 (on) iş günü** əvvəl yazılı qaydada xəbərdar etməklə Müqaviləyə birtərəfli qaydada xitam verə bilər.

## 8. MÜBAHİSƏLİ MƏSƏLƏLƏRİN HƏLLİ

8.1. Bu Müqavilənin bağlanması, icrası, dəyişdirilməsi, şərhi, qüvvədə olması və ya ona xitam verilməsi ilə əlaqədar Tərəflər arasında yaranan bütün mübahisələr və fikir ayrılıqları ilk növbədə danışıqlar və qarşılıqlı razılıq yolu ilə həll edilir.

8.2. Mübahisəli məsələlərin və qeyri-müəyyənliklərin həlli danışıqlar yolu ilə 30 (otuz) gün müddətində mümkün olmadıqda, bu məsələlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin şərtlərinə əsasən həll edilməlidir.

8.3. Bu Müqavilənin hər hansı müddəasının tam və ya qismən etibarsız, hüquqi qüvvəsini itirmiş və ya icra edilə bilməyən hesab edilməsi Müqavilənin digər müddəalarının etibarlılığına və icrasına təsir göstərmir. Belə halda Tərəflər etibarsız hesab edilmiş müddəanı onun məqsədinə və hüquqi nəticələrinə mümkün qədər uyğun olan yeni müddəa ilə əvəz etmək üçün zəruri tədbirlər görürlər.

8.4. Müqavilənin hər hansı müddəasının və ya şərtinin qadağan olunması və ya etibarsız/icraedilməz hesab edilməsi, Müqavilənin hər hansı digər müddəa və şərtlərinin etibarlılığına və ya icrasına təsir göstərmir.

## 9. MÜQAVİLƏYƏ XİTAM VERİLMƏSİ

9.1. Bu Müqaviləyə Azərbaycan Respublikasının qanunvericiliyində və bu Müqavilədə nəzərdə tutulmuş hallarda Tərəflərin qarşılıqlı razılığı ilə və ya birtərəfli qaydada xitam verilə bilər.

9.2. Təhsil Müəssisəsi, bu Müqavilənin şərtlərinin pozulmasına görə malik olduğu digər hüquqlara xələl gətirmədən, Valideynə yazılı və ya elektron bildiriş göndərməklə aşağıdakı hallarda bu Müqaviləyə tam və ya qismən xitam verə bilər:

9.2.1. Valideyn bu Müqavilə üzrə öhdəliklərini yerinə yetirmədikdə və ya lazımi qaydada yerinə yetirmədikdə, həmin pozuntu Təhsil Müəssisəsinin müəyyən etdiyi ağlabatan müddətdə aradan qaldırılmadıqda;

9.2.2. Valideyn və ya Təhsilalan bu Müqavilədə, Təhsil Müəssisəsinin qanunvericiliyə uyğun müəyyən edilmiş daxili qaydalarında və davranış qaydalarında nəzərdə tutulmuş tələbləri əhəmiyyətli dərəcədə pozduqda, nəticədə tədris prosesinin normal gedişi, digər təhsilalanların təhlükəsizliyi və hüquqları və ya Təhsil Müəssisəsinin fəaliyyəti üçün ciddi maneə yarandıqda;

9.2.3. Valideyn tərəfindən bu Müqavilənin 3-cü maddəsində nəzərdə tutulmuş ödəniş öhdəlikləri yerinə yetirilmədikdə;

9.2.4. Təhsilalanın sağlamlıq vəziyyəti ilə bağlı səlahiyyətli tibb müəssisəsinin və ya qanunvericiliklə müəyyən edilmiş digər səlahiyyətli qurumun rəyi əsasında onun mövcud təhsil mühitində təhsilini davam etdirməsinin mümkün olmadığı və Təhsil Müəssisəsinin həmin ehtiyaclara uyğun təhsil xidmətini göstərmək imkanının olmadığı müəyyən edildikdə.

9.2.5. Qarşısıalınmaz qüvvə halları nəticəsində bu Müqavilənin icrası **1 (bir) aydan** artıq müddətdə mümkün olmadıqda.

## 10. ŞƏXSİ MƏLUMATLARIN EMALINA RAZILIQ

10.1. Valideyn bu Müqaviləni imzalamaqla, Təhsil Müəssisəsinə bu Müqavilənin bağlanılması, icrası, təhsil prosesinin təşkili, Təhsilalanın təhlükəsizliyinin təmin

edilməsi, dövlət informasiya sistemlərində qeydiyyatın aparılması, qanunvericilikdə nəzərdə tutulmuş hesabatlılığın təmin edilməsi və digər qanuni məqsədlərlə özünə və Təhsilalana aid şəxsi məlumatların Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq toplanılmasına, emal edilməsinə, saxlanılmasına və istifadəsinə razılıq verir.

10.2. Təhsil Müəssisəsi təhsilalanın təhlükəsizliyinin, təhsil prosesinə nəzarətin və əmlakın mühafizəsinin təmin edilməsi məqsədilə ümumi istifadədə olan ərazilərdə və tədris otaqlarında (yerlərində) video müşahidə sistemlərindən istifadə edə bilər. Video müşahidə qanunvericiliyin tələblərinə uyğun həyata keçirilir.

10.3. Təhsil Müəssisəsi şəxsi məlumatları, o cümlədən Təhsilalanın və ya Valideynin foto, video və audio materiallarını yalnız bu Müqavilənin icrası və qanunvericilikdə nəzərdə tutulmuş məqsədlər üçün istifadə edir. Şəxsi məlumatların başqa məqsədlərlə emalı yalnız Valideynin ayrıca yazılı razılığı və ya qanunvericilikdə nəzərdə tutulmuş hallar əsasında həyata keçirilə bilər.

10.4. Təhsil Müəssisəsi şəxsi məlumatların qanunsuz əldə edilməsinin, istifadəsinin, açıqlanmasının, dəyişdirilməsinin və ya məhv edilməsinin qarşısının alınması üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun zəruri təşkilati və texniki təhlükəsizlik tədbirlərini həyata keçirir.

10.5. Valideyn qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsi məlumatlarının emalına verdiyi razılığı istənilən vaxt yazılı müraciət etməklə geri götürmək hüququna malikdir. Bu halda Təhsil Müəssisəsi şəxsi məlumatların emalını qanunvericiliyin tələblərinə uyğun şəkildə dayandırır və ya məhdudlaşdırır.

## 11. YEKUN MÜDDƏALAR

11.1. Bu Müqavilədən irəli gələn münasibətlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Təhsil haqqında" və "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının qanunları, bu Müqavilənin bağlanmasına əsas olan Qaydalar, habelə bu sahəni tənzimləyən digər qüvvədə olan normativ hüquqi aktlarla tənzimlənir.

11.2. Bu Müqavilə ilə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həll edilir.

11.3. Bu Müqavilə Azərbaycan dilində 2 (iki) eyni hüquqi qüvvəyə malik nüsxədə tərtib edilmişdir. Müqavilənin bir nüsxəsi Təhsil Müəssisəsində, digər nüsxəsi isə Valideyndə saxlanılır.

| | **Təhsil müəssisəsinin adı** |
|---|---|
| VÖEN: | |
| Bank: | |
| Kodu: | |
| Bank VÖEN: | |
| H/h: | |
| M/h: | |
| SWIFT | |

| | |
|---|---|
| *(imza və möhür)*<br>*(Təhsil Müəssisəsinin rəhbərinin adı, soyadı, atasının adı və vəzifəsi)* | *(Valideynin adı, soyadı və atasının adı)* |